*Qədim Diyar* Beynəlxalq Elmi Jurnal. 2026 / Cild: 8 Sayı: 2 / 99-104 ISSN: 2706-6185
*Ancient Land* International Scientific Journal. 2026 / Volume: 8 Issue: 2 / 99-104 e-ISSN: 2709-4197

DOI: https://doi.org/10.36719/2706-6185/56/99-104

**Günay Hüseynzadə**
Bakı Biznes Universiteti
magistrant
https://orcid.org/0009-0009-5934-0572
gunayhuseynzad111@gmail.com

# Azərbaycanda sosial müdafiə sisteminin inkişaf istiqamətləri

## Xülasə

Məqalədə Azərbaycanda sosial müdafiə sisteminin mövcud vəziyyəti və onun gələcək inkişaf istiqamətləri kompleks şəkildə təhlil olunur. Sosial müdafiə sistemi əhalinin sosial risklərdən qorunması, gəlir bərabərsizliyinin azaldılması və sosial ədalətin təmin olunması baxımından dövlət siyasətinin mühüm tərkib hissəsidir. Müasir dövrdə qlobal iqtisadi dəyişikliklər, demoqrafik transformasiyalar, əmək bazarındakı yeniliklər və sosial strukturun dəyişməsi sosial müdafiə mexanizmlərinin təkmilləşdirilməsini zəruri edir. Sosial müdafiə sisteminin əsas komponentləri olan sosial sığorta, pensiya təminatı, ünvanlı dövlət sosial yardımı, sosial xidmətlər və aktiv məşğulluq proqramları elmi yanaşma əsasında araşdırılır. Eyni zamanda, sosial müdafiənin şəffaflığının və əlçatanlığının artırılması baxımından mühüm inkişaf istiqaməti kimi qiymətləndirilir.

Sosial müdafiə sisteminin davamlı inkişafı üçün inklüzivliyin daha da gücləndirilməsi, həssas əhali kateqoriyalarının cəmiyyətə inteqrasiyasının təmin edilməsi, aktiv əmək bazarı proqramlarının genişləndirilməsi və sosial xidmətlərdə peşəkarlıq səviyyəsinin artırılması xüsusi əhəmiyyət daşıyır. Məqalədə sosial müdafiə siyasətinin yalnız maddi təminat mexanizmi kimi deyil, insan kapitalının inkişafına, sosial sabitliyin qorunmasına və sosial dövlət modelinin möhkəmləndirilməsinə xidmət edən strateji istiqamət kimi qiymətləndirilməsi əsaslandırılır.

***Açar sözlər:*** *sosial müdafiə sistemi, sosial siyasət, sosial ədalət, inklüzivlik, sosial xidmətlər, əhali, inkişaf*

**Gunay Huseynzade**
Baku Business University
Master's student
https://orcid.org/0009-0009-5934-0572
gunayhuseynzad111@gmail.com

# Development Directions of the Social Protection System in Azerbaijan

## Abstract

The article provides a comprehensive analysis of the current state of the social protection system in Azerbaijan and its future development directions. The social protection system is a crucial component of state policy in terms of protecting the population from social risks, reducing income inequality, and ensuring social justice. In the modern era, global economic changes, demographic transformations, innovations in the labor market, and shifts in the social structure necessitate the improvement of social protection mechanisms. The main components of the social protection system, including social insurance, pension provision, targeted state social assistance, social services, and active employment programs, are examined based on a scientific approach. At the same time, enhancing the transparency and accessibility of social protection is considered an important direction for its development.

For the sustainable development of the social protection system, strengthening inclusivity, ensuring the integration of vulnerable population groups into society, expanding active labor market programs, and increasing the professionalism of social services are of particular importance.

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

The article emphasizes that social protection policy should be regarded not only as a mechanism for material support but also as a strategic approach that contributes to human capital development, the preservation of social stability, and the strengthening of the social state model.

***Keywords:*** *social protection system, social policy, social justice, inclusivity, social services, population, development*

## Giriş

Sosial müdafiə sistemi cəmiyyətin sosial rifahının qorunmasında və sosial ədalətin təmin edilməsində vacib rol oynayan dövlət institutu kimi çıxış edir. Müasir dövrdə iqtisadi dəyişikliklər, əmək bazarındakı dinamika, urbanizasiya və ailə strukturunda baş verən dəyişikliklər sosial müdafiə sisteminin daha da yenilənməsini və təkmilləşdirilməsini tələb edir. Azərbaycanda sosial müdafiə sistemi sosial dövlət prinsiplərinə uyğun olaraq formalaşdırılmış və əhalinin sosial risklərdən qorunması, minimum yaşayış səviyyəsinin təmin edilməsi, həssas qrupların müdafiəsi və sosial inteqrasiyanın gücləndirilməsi kimi əsas vəzifələri həyata keçirir.

Sosial müdafiə anlayışını sadəcə maddi yardımların təmin olunması ilə məhdudlaşdırmaq doğru olmaz. "O, həmçinin sosial sığorta, pensiya sistemi, sosial xidmətlər və aktiv məşğulluq proqramları vasitəsilə vətəndaşların cəmiyyətə inteqrasiyasını, sosial ədalətin qorunmasını və insan kapitalının inkişafını dəstəkləyən geniş bir anlayışdır." (Rəcəbli, 2012). Müasir yanaşmada sosial müdafiə sistemi həm passiv, həm də aktiv komponentləri əhatə edir. Passiv komponent sosial risklərin aradan qaldırılmasına yönəlmiş yardımları, aktiv komponent isə vətəndaşların iqtisadi və sosial fəallığını artırmaq məqsədini daşıyır.

Məlum olduğu kimi, ölkəmiz Azərbaycanda sosial müdafiə sisteminin inkişafı bir neçə mərhələdə həyata keçirilmişdir. Əsas diqqət sosial yardımların hədəfliliyinin artırılması, institusional qayğıdan alternativ qayğı modellərinə keçid, sosial xidmətlərin keyfiyyətinin yüksəldilməsi istiqamətinə yönəldilmişdir. Eyni zamanda, ölkədə sosial müdafiə siyasətinin inklüzivliyi, yəni bərabərliyi, sosial ədalət prinsipləri ilə uyğunlaşdırılması, həssas qrupların – əlilliyi olan şəxslər, valideyn himayəsindən məhrum olmuş uşaqlar, aztəminatlı ailələr və ahıllar – müdafiəsini təmin etmək məqsədini daşıyır. Məqalənin məqsədi Azərbaycanda sosial müdafiə sisteminin faktiki vəziyyətini təhlil etmək, onun əsas mexanizmlərini müəyyənləşdirmək və gələcək inkişaf istiqamətlərini sosial ədalət, inklüzivlik və dayanıqlılıq prinsipləri əsasında göstərməkdir.

**Tədqiqat**

Sosial müdafiə sistemi dövlətin sosial siyasətinin əsas istiqamətlərindən biri olmaqla cəmiyyət üzvlərinin sosial risklərdən qorunmasını təmin edən institusional, hüquqi və iqtisadi mexanizmlərin məcmusudur. Bu sistemin təməl məqsədi vətəndaşların həyat səviyyəsinin minimum sosial standartlardan aşağı düşməsinin qarşısını almaq, sosial ədaləti təmin etmək və sosial sabitliyi qorumaqdır. Sosial müdafiə anlayışı tək maddi yardım və ya ödənişlərlə məhdudlaşmır, o, eyni zamanda sosial xidmətlər, sosial sığorta mexanizmləri və aktiv məşğulluq tədbirləri vasitəsilə insanların cəmiyyətə inteqrasiyasını və sosial iştirakını dəstəkləyir.

Müasir dövrdə sosial müdafiə sistemi sosial dövlət modelinin əsas göstəricilərindən biri kimi təsnif edilir (Mehtiyev və b., 2005). Sosial dövlət prinsipi vətəndaşların ləyaqətli həyat səviyyəsinin təchiz olunması, sosial bərabərliyin qorunması və sosial risklərin kollektiv şəkildə bölüşdürülməsini məqsəd qoyur. Bu aspektdən sosial müdafiə sistemi fərdi məsuliyyətlə dövlətin sosial öhdəlikləri arasında balans yaradan mexanizm kimi təzahür edir. Sosial müdafiə sisteminin dəyəri sosial risk anlayışı ilə sıx bağlıdır. Sosial risklər dedikdə insanın iradəsindən asılı olmayan və onun gəlir imkanlarını və sosial vəziyyətini mənfi təsirə məruz qoyan hallar kimi qavranılır. "Yəni, şəxsin qarşılaşdığı sosial risklərin iqtisadi təsirlərinin qarşısının alınmasında müdafiə təminatı rolunu oynayır" (Məcidov, 2014). Bu risklərə işsizlik, xəstəlik, əlillik, yaşlılıq, ailə başçısının itirilməsi, aztəminatlılıq və digər sosial problemlər daxildir. Sosial müdafiə sistemi məhz bu risklərin təsirini minimuma endirmək və vətəndaşların sosial təhlükəsizliyini təmin etmək üçün formalaşdırılır.

*Sosial müdafiə sistemi bir neçə mühüm funksiyanı yerinə yetirir:*

Qoruyucu funksiya – bu funksiya vətəndaşların sosial risklər nəticəsində gəlir itkisinin kompensasiya edilməsini nəzərdə tutur. Məsələn, pensiya təminatı yaşlılıq dövründə gəlir mənbəyi rolunu oynayır, sosial müavinətlər isə əmək qabiliyyətini itirmiş və ya müvəqqəti çətin vəziyyətə düşmüş şəxslərin minimum yaşayış səviyyəsini qorumağa xidmət edir. Qoruyucu funksiya sosial təhlükəsizlik mexanizminin əsasını təşkil edir.

Tənzimləyici funksiya – sosial müdafiə sistemi gəlir bölgüsünün daha ədalətli həyata keçirilməsinə təsir göstərir. Dövlət tərəfindən tətbiq olunan sosial ödənişlər və yardımlar əhalinin müxtəlif təbəqələri arasında sosial bərabərsizliyin azaldılmasına yönəlir. Bu funksiya sosial gərginliyin azalmasına və ictimai sabitliyin qorunmasına şərait yaradır (Kərimli, 2017).

İnteqrativ funksiya – sosial müdafiə yalnız maddi təminat vasitəsi deyil, həm də sosial inteqrasiyanın alətidir. Həssas əhali qruplarının – əlilliyi olan şəxslərin, aztəminatlı ailələrin, valideyn himayəsindən məhrum olmuş uşaqların və digər kateqoriyaların – cəmiyyətə tam və bərabər şəkildə qoşulması üçün sosial xidmətlər mühüm rol oynayır. Bu baxımdan, sosial müdafiə sistemi sosial inklüzivliyin təmin edilməsinə xidmət edir.

“Aydın olduğu kimi, Azərbaycan Respublikasında sosial müdafiə sahəsi dövlət tərəfindən əsas təməl sahə kimi idarə edilir və sosial müdafiə aspektinə nəzarət müxtəlif dövlət qurumları tərəfindən həyata keçirilir.” (ƏƏSMN, 2025) Ölkəmizdə sosial müdafiə sistemi dövlətin sosial siyasətinin əsas istiqamətlərindən biri kimi formalaşmış və müxtəlif mexanizmlər vasitəsilə həyata keçirilir. Bu mexanizmlər əhalinin sosial risklərdən qorunmasını, minimum yaşayış səviyyəsinin təmin edilməsini və həssas qrupların sosial inteqrasiyasını hədəfləyir. Mövcud sosial müdafiə mexanizmləri əsasən sosial sığorta, sosial təminat, sosial yardım, sosial xidmətlər və aktiv məşğulluq proqramları istiqamətində təşkil olunmuşdur.

**Sosial sığorta və pensiya təminatı**

Sosial sığorta sistemi vətəndaşların əmək fəaliyyəti dövründə ödədikləri məcburi sosial sığorta haqları əsasında formalaşır və gələcəkdə onların sosial təminatını təmin edir. Bu mexanizm xüsusilə yaşlılıq, əlillik və ailə başçısını itirmə hallarında gəlir itkisini kompensasiya etməyə yönəlmişdir (Azərbaycan Respublikasının Prezidenti, 1997). Pensiya təminatı sosial müdafiə sisteminin əsas elementlərindən biridir. Əmək pensiyası vətəndaşın əmək stajı və ödədiyi sığorta haqları əsasında müəyyən edilir. Bu yanaşma sosial ədalət prinsipinə əsaslanaraq “ödəmə-qazanma” modelini tətbiq edir. Son illərdə pensiya sistemində aparılan islahatlar elektronlaşma, fərdi uçot sisteminin təkmilləşdirilməsi və şəffaflığın artırılması istiqamətində mühüm addımlarla müşayiət olunur. Sosial sığorta mexanizmi yalnız gəlir təminatı deyil, həm də əmək münasibətlərinin leqallaşdırılmasını stimullaşdıran vasitə kimi çıxış edir.

**Sosial müavinətlər və dövlət sosial təminatı**

Sosial müavinətlər dövlət büdcəsi hesabına maliyyələşdirilən və müəyyən sosial kateqoriyalara aid şəxslərə təqdim olunan ödənişlərdir. Bu mexanizm əsasən əmək qabiliyyəti olmayan, xüsusi sosial statusa malik və ya sosial risklərlə üzləşmiş şəxsləri əhatə edir. Buraya əlilliyə görə müavinətlər, ailə başçısını itirməyə görə ödənişlər, uşaqlara görə dövlət dəstəyi və digər xüsusi kateqoriyalar üzrə sosial təminat tədbirləri daxildir (Azərbaycan Respublikasının Prezidenti, 2006). Bu mexanizm sosial müdafiə sisteminin humanist xarakterini əks etdirir və vətəndaşların minimum sosial təminat hüququnun reallaşmasına xidmət edir.

**Ünvanlı dövlət sosial yardımı**

Ünvanlı sosial yardım aztəminatlı ailələrin gəlir səviyyəsinin artırılması məqsədilə tətbiq olunan mexanizmdir. Bu yardım ailənin ümumi gəlirinin müəyyən edilmiş yaşayış minimumundan aşağı olması halında təyin edilir. Bu mexanizmin əsas xüsusiyyəti onun hədəfliliyidir. Yardımın təyin olunması ailənin maddi vəziyyətinin qiymətləndirilməsi əsasında həyata keçirilir ki, bu da resursların daha ədalətli bölüşdürülməsinə imkan yaradır (DSMF, 2006). Ünvanlı sosial yardım mexanizmi yoxsulluğun azaldılmasına, sosial bərabərsizliyin yumşaldılmasına və sosial risklərin minimuma endirilməsinə yönəlmiş mühüm alətdir.

**Sosial xidmətlər sistemi**

Sosial müdafiənin mühüm istiqamətlərindən biri sosial xidmətlərdir. Sosial xidmətlər fərdi və ya ailə səviyyəsində sosial çətinliklərin aradan qaldırılmasına, sosial adaptasiyanın təmin edilməsinə və sosial inteqrasiyanın gücləndirilməsinə yönəlir (Rəhmətullayeva, 2020). Bu xidmətlər ahıllar və əlilliyi olan şəxslər üçün sosial xidmətlər, valideyn himayəsindən məhrum olmuş uşaqlara qayğı, məişət zorakılığı qurbanlarına dəstək, sosial reabilitasiya və psixososial xidmətlər, icma əsaslı sosial iş fəaliyyətləri və s. istiqamətləri əhatə edir. Son illərdə institusional qayğı modelindən ailə və icma əsaslı xidmətlərə keçid tendensiyası müşahidə olunur.

**Məşğulluq və aktiv əmək bazarı proqramları**

Sosial müdafiə sistemi yalnız passiv yardım mexanizmləri ilə məhdudlaşmır. Aktiv məşğulluq siyasəti vətəndaşların əmək bazarına inteqrasiyasını və iqtisadi müstəqilliyini təmin etməyə yönəlir. Bu istiqamətə daxildir: işsiz şəxslərin qeydiyyatı və işlə təmin olunması; peşə hazırlığı və ixtisasartırma kursları; özünüməşğulluq proqramları; ictimai işlər layihələri; sahibkarlığa dəstək tədbirləri və s. Aktiv proqramlar sosial asılılığın azalmasına və sosial müdafiə sisteminin daha davamlı olmasına töhfə verir.

Müasir dövrdə sosial müdafiə sistemi yalnız sosial ödənişlərin həyata keçirilməsi ilə məhdudlaşmır, eyni zamanda sosial ədalətin təmin olunmasına, insan kapitalının inkişafına və sosial sabitliyin qorunmasına xidmət edən strateji sahə kimi çıxış edir. Qlobal iqtisadi dəyişikliklər, demoqrafik proseslər, əmək bazarının transformasiyası və texnoloji inkişaf sosial müdafiə sisteminin çevik, inklüziv və dayanıqlı model əsasında yenidən qurulmasını zəruri edir. Azərbaycanda da sosial dövlət prinsiplərinə uyğun olaraq sosial müdafiə mexanizmlərinin təkmilləşdirilməsi prioritet istiqamət kimi müəyyən edilmişdir.

1. İnklüziv və bərabər imkanlara əsaslanan modelin gücləndirilməsi. Sosial müdafiə sisteminin inkişaf istiqamətlərindən biri də inklüzivliyin təmin olunmasıdır. Sosial siyasət yalnız yardım yönümlü deyil, eyni zamanda cəmiyyətin bütün üzvlərinin sosial, iqtisadi və mədəni həyatda fəal iştirakını təmin etməyə yönəlməlidir (Alirzayev, 2025, s. 48).

*Bu nöqteyi-nəzərdən baxsaq, aşağıda qeyd edilən tədbirlər mühüm əhəmiyyət daşıyır:*

- Əlilliyi olan şəxslər üçün əlçatan infrastrukturun genişləndirilməsi;
- Gender bərabərliyinə həssas sosial proqramların tətbiqi;
- Valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün ailə əsaslı alternativ qayğı modellərinin inkişafı;
- Aztəminatlı ailələrin sosial adaptasiya imkanlarının artırılması və s. İnklüziv yanaşma sosial təcridin qarşısını almağa və sosial həmrəyliyi gücləndirməyə xidmət edir.

*2.* Aktiv sosial siyasətin genişləndirilməsi. Sosial müdafiə sisteminin davamlı inkişafı passiv yardım mexanizmləri ilə yanaşı, aktiv sosial siyasətin gücləndirilməsini tələb edir. Aktiv sosial siyasət vətəndaşların əmək bazarına inteqrasiyasını, iqtisadi müstəqilliyini və sosial məsuliyyətini təşviq edir. *Bu istiqamətdə prioritetlər aşağıda qeyd edilmişdir:*

- Əmək bazarının tələblərinə uyğun peşə hazırlığı proqramlarının təşkili;
- Gənclərin və qadınların məşğulluq imkanlarının artırılması;
- Özünüməşğulluq və sosial sahibkarlıq təşəbbüslərinin dəstəklənməsi;
- İşsiz şəxslər üçün fərdi inkişaf planlarının hazırlanmasıdır (Alirzayev, 2024, s. 18). Belə yanaşma sosial asılılıq riskini azaldır və sosial müdafiə sisteminin maliyyə yükünü optimallaşdırır.

3. Sosial xidmətlərin keyfiyyətinin və peşəkarlığın artırılması. Sosial müdafiə sisteminin effektivliyi göstərilən xidmətlərin keyfiyyəti ilə birbaşa bağlıdır. Bu səbəbdən sosial işçilərin peşə hazırlığının gücləndirilməsi, etik standartların tətbiqi və davamlı təlim mexanizmlərinin formalaşdırılması mühüm inkişaf istiqamətidir. İcma əsaslı sosial iş modelinin genişləndirilməsi, fərdi yanaşma prinsiplərinin tətbiqi və multidissiplinar əməkdaşlığın təşviqi sosial xidmətlərin nəticəliliyini artırır (Azərbaycan Respublikasının Prezidenti, "Azərbaycan Respublikasında sosial xidmətin inkişafına dair 2023–2026-cı illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Sərəncamı, 2022).

4. Sosial tərəfdaşlığın və ictimai iştirakçılığın gücləndirilməsi. Sosial müdafiə sisteminin inkişafı sadəcə dövlətin fəaliyyəti ilə məhdudlaşmamalıdır. Qeyri-hökumət təşkilatları, vətəndaş cəmiyyəti institutları və özəl sektor sosial xidmətlərin göstərilməsində və sosial layihələrin icrasında əhəmiyyətli rol oynaya bilər.

5. Erkən müdaxilə mexanizmlərinin inkişafı. Müasir sosial müdafiə yanaşması yalnız nəticələrin aradan qaldırılmasına deyil, risklərin qarşısının alınmasına yönəlməlidir. Erkən müdaxilə proqramları, ailələrin sosial risklər barədə maarifləndirilməsi və icma səviyyəsində profilaktik tədbirlərin həyata keçirilməsi sosial problemlərin dərinləşməsinin qarşısını alır.

## Nəticə

Məlum olduğu kimi, Azərbaycanda sosial müdafiə sistemi əhalinin sosial rifahını təmin etmək, sosial risklərin təsirini minimuma endirmək və sosial ədaləti qorumaq baxımından dövlət siyasətinin əsas elementidir. Müasir dövrdə sosial müdafiə sisteminin effektivliyi yalnız maddi yardımların verilməsi ilə ölçülmür. Əsas amil vətəndaşların cəmiyyətə inteqrasiyası, insan kapitalının inkişafı, sosial bərabərliyin qorunması və sosial sabitliyin təmin edilməsidir. Araşdırma nəticəsində müəyyən olunmuşdur ki, sosial müdafiə sisteminin inkişaf istiqamətləri aşağıdakı prioritetlər üzərində qurulmalıdır:

1. İnklüzivliyin və sosial ədalətin gücləndirilməsi;
2. Aktiv sosial siyasətin tətbiqi;
3. Sosial xidmətlərin keyfiyyətinin yüksəldilməsi;
4. Maliyyə dayanıqlığının təmin olunması;
5. Sosial tərəfdaşlığın gücləndirilməsi.

Bu istiqamətlərin həyata keçirilməsi sosial müdafiə sisteminin yalnız vətəndaşların maddi təminatı ilə məhdudlaşmadığını, həm də onların sosial inteqrasiyasına, ləyaqətli həyat səviyyəsinin qorunmasına və dayanıqlı cəmiyyətin formalaşmasına xidmət etdiyini göstərir. Nəticə olaraq qeyd edə bilərik ki, sosial müdafiənin bu istiqamətdə təkmilləşdirilməsi həm fərdi, həm də kollektiv sosial rifahın qorunmasına, sosial ədalətin daha da möhkəmlənməsinə və dövlətin sosial sabitlik strategiyasının uğurla həyata keçirilməsinə əsaslı töhfə verəcəkdir.

## Ədəbiyyat


1. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi. (2025, 15 yanvar). *Sosial müdafiə sistemi və xidmətləri*. https://www.sosial.gov.az/az/nazirlik/haqqinda
2. Azərbaycan Respublikası Dövlət Sosial Müdafiə Fondu. (2006) *Ünvanlı dövlət sosial yardım nədir.* https://dost.gov.az/page/unvanli-dovlet-sosial-yardimi-nedir
3. Azərbaycan Respublikası Prezidenti. (2022) *"Azərbaycan Respublikasında sosial xidmətin inkişafına dair 2023–2026-cı illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Sərəncamı.* https://e-qanun.az/framework/55044
4. Azərbaycan Respublikasının Prezidenti. (1997). *"Sosial sığorta haqqında" Azərbaycan Respublikasının Qanunu.* https://e-qanun.az/framework/3813
5. Azərbaycan Respublikasının Prezidenti. (2006). *"Sosial müavinətlər haqqında" Azərbaycan Respublikasının Qanunu.* https://e-qanun.az/framework/11508
6. Alirzayev, E. A. (2025). *Azərbaycan Respublikasında sosial müdafiənin nəzəri-metodoloji əsasları.* ADAU Elmi əsərləri.
7. Alirzayev, E. A. (2024). *Conceptual issues of social security in the Republic of Azerbaijan. Audit Journal, 3(2), 12–25.* https://audit-journal.az/en/articles/276
8. Kərimli, A. (2017). *"Sosial müdafiənin təkmilləşdirilməsi problemləri".* https://unec.edu.az/application/uploads/2018/11/K-rimli-Afaq.pdf

9. Məcidov, A. (2014, 15 aprel). *Sosial müdafiə və insan amili.* https://www.anl.az/down/meqale/525/2014/aprel/362940.htm
10. Mehtiyev, A., İbadoğlu, Q., Ağayev, R., Əliyev, S. (2005). Sosial müdafiə və təminat xərcləri. *"Ekspert" jurnalı.*
11. Rəcəbli, H. (2012). *Azərbaycan Respublikasının Sosial Müdafiə Sistemi.* MBM.
12. Rəhmətullayeva, C. (2020, 23 dekabr). *Sosial xidmət.* https://www.geostrategiya.az/news.php?id=115

Daxil oldu: 06.05.2025
Qəbul edildi: 18.10.2025